# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/57** **5 sentyabr 2018-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatası sistemində elektron sənəd dövriyyəsinin yaxşılaşdırılması barədə**

"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlarla elektron sənəd dövriyyəsinin yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlarla elektron sənəd dövriyyəsinin yaxşılaşdırılması məqsədilə aşağıdakı təkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Səbuhi Gülməmmədov – Auditin təşkili və kadr hazırlığı idarəsinin rəisi

***İşçi qrupunun üzvləri***

Fəqan Qarayev – Sədrin müşaviri
Aytən Seyidəliyeva – Kadr hazırlığı və ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini
Nigar İsmayılova – Auditin təşkili, akkreditasiya və üzvlük şöbəsinin aparıcı mütəxəssisi
Yunis Mustafayev – Kadr hazırlığı və ictimaiyyətlə əlaqə şöbəsinin baş mütəxəssisi

2. İşçi qrupuna tapşırılsın ki, on gün müddətində:
- ölkədə fəaliyyət göstərən auditor təşkilatları və sərbəst auditorların işlək e-mail ünvanlarını dəqiqləşdirib nəticəsi barədə rəhbərliyə təhriri məruzə təqdim etsinlər;
- e-mail ünvanı mövcud olmayan auditor təşkilatları və sərbəst auditorların yeni e-mail ünvanlarının qeydiyyatdan keçirilməsini təmin etsinlər.

3. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, F.Qarayev, N.Talıbov, M.Abbasov, S.Gülməmmədov, E.İbrahimov, V.Rəhimov, Y.Namazəliyev, T.Əmiraslanov) tapşırılsın ki, auditor təşkilatları və sərbəst auditorlarla yazışmalar əsasən elektron qaydada aparılsın.

4. Auditorlar Palatasının üzvlərinə (auditor təşkilatlarına və sərbəst auditorlara) tapşırılsın ki, il ərzində onların əlaqə nömrələrində və ya e-mail ünvanlarında hər hansı bir dəyişikliklər baş verərsə, 3 gün ərzində həmin dəyişikliklər barədə Palatanın Auditin təşkili və kadr hazırlığı idarəsinə yazılı məlumat versinlər.

5. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**